*“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 5 iyul 2014-cü il | № 51 (1868) | Qiyməti 25 qəpik


## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberqi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.***

***Görüşdə Azərbaycan Respublikası ilə Norveç Krallığı arasında ikitərəfli münasibətlərin ötən dövr ərzində siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığımızın bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Rusiya Dövlət Dumasının sədri Sergey Narışkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.***

***Prezident İlham Əliyev Rusiya Dövlət Dumasının sədri Sergey Narışkinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı son vaxtlar yüksək səviyyəli səfərlərin həyata keçirildiyini vurğulayaraq bu baxımdan Sergey Narışkinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin mühüm əhəmiyyət daşıdığını söylədi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Birləşmiş Ştatların Missisipi ştatından olan respublikaçı senator Rocer Uikerin və Nyu Cersi ştatından olan respublikaçı konqresmen Kristofer Smitin başçılıq etdikləri ABŞ nümayəndə heyətini qəbul etmişdir.***

***Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, ATƏT Parlament Assambleyasının Bakıda keçirilən iyirmi üçüncü illik sessiyasının əhəmiyyətinə toxunularaq tədbirdə səmərəli müzakirələrin aparılacağı əminliklə qeyd olundu.***

***Söhbət zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ATƏT Parlament Assambleyası çərçivəsində əməkdaşlığımız ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Monteneqro parlamentinin sədri, ATƏT Parlament Assambleyasının prezidenti Ranko Krivokapiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.***

***Görüşdə ATƏT Parlament Assambleyasının iyirmi üçüncü illik sessiyasının Bakıda keçirilməsinin əhəmiyyəti qeyd edildi. Prezident İlham Əliyev və Ranko Krivokapiç sessiyada məhsuldar müzakirələrin aparılacağına ümidvar olduqlarını bildirdilər.***

**AzərTAc-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Ordu quruculuğu ən vacib, ən ümdə vəzifə olmalıdır



***Müasir dövrdə Azərbaycanın dövlət rəhbərliyinin siyasi kursunda başlıca yer tutan məsələlərdən biri də ordu quruculuğunun daha da inkişaf etdirilməsidir. Doğrudan da, ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün qarantı kimi ordunun hərbi qüdrətinin möhkəmlənməsi prioritet məsələlərdən biri olmalıdır. Bəzən dünyada ikili standartlara rəvac verən inkişaf etmiş dövlətlərin rəsmiləri Azərbaycan tərəfini son illər ordunun hərbi gücünü artırmaqda ittiham etməkdən çəkinmirlər. Amma onlara cavab olaraq Prezident İlahm Əliyev dəfələrlə birmənalı şəkildə bəyan edib ki, illərdən bəri Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş ərazilərinin işğaldan azad edilməməsi bizi hərbi potensialımızı artırmağa vadar edir. "Biz çalışırıq ki, iki dövlət arasında mövcud olan Dağlıq Qarabağ problemi dinc yolla həllini tapsın. Amma işğalçı dövlətin aqressivliyi bu problemin həllini yubadır. Belə olan halda Azərbaycan özünün ərazi bütövlüyünü istənilən yolla həll etmək zərurətində olacaqdır".***

Bu yaxınlarda Silahlı Qüvvələrin genişmiqyaslı hərbi təlimində iştirak edən ölkə başçısı bir daha vurğuladı ki, müharibə şəraitində yaşadığımız bir vaxtda ordunu gücləndirmək ən ümdə vəzifəmiz olmalıdır. Bu məqsədlə son illər ərzində orduya böyük miqdarda maliyyə vəsaiti ayrılıb, hərbi hissələrin maddi-texniki bazası ötən illərlə müqayisədə xeyli güclənib. Ali Baş Komandana görə, hərbi xərclərimizin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. "Bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq", - deyə dövlət başçısı bildirib.

Bugünkü dövrdə orduda xidmət edən insanların sosial rifahının yaxşılaşdırılması da dövlət rəhbərliyinin diqqət mərkəzində dayanan əsas məsələlərdən biridir. Məhz hərbi qulluqçulara göstərilən yüksək dövlət qayğısının nəticəsidir ki, artıq 20 təqvim ili və daha artıq orduda xidməti olan zabit və gizirlər dövlət hesabına daimi mənzillərlə təmin edilirlər. Bildiyimiz kimi, bu istiqamətdə görülən işlər nəticəsində 200-dən artıq zabit və gizirə daimi mənzillər verilib. Təlimdə çıxış edən Ali Baş Komandan qeyd edib ki, bu ilin sonuna kimi belə hərbi qulluqçuların sayı 500 nəfərə çatdırılacaqdır. Bununla bərabər nəinki paytaxt Bakıda, həmçinin başqa bölgələrimizdə də tikilib istifadəyə verilmiş müasir hərbi şəhərciklərdə zabit və gizir ailələri rahat şəraitə malik olan xidməti mənzillərdə yerləşdirilib.

Bir çox erməni saytlarına istinadla qeyd etmək lazımdır ki, Azərbaycanın hərbi qüdrətinin ildən-ilə yüksəlməsi və ölkəmizdə hərbi qulluqçulara göstərilən dövlət qayğısı işğalçı ölkənin rəsmilərini də təşvişə salıb. Artıq qarşı tərəfdə anlayırlar ki, Azərbaycanla hərbi dillə danışmaq mümkün olmayacaqdır. Buna görə də Ermənistan beynəlxalq qurumların köməyinə və bir sıra dövlətlərin yardımına ümidlidir.

Əlbəttə, bizim hərbi qüdrətimizin artması qətiyyən heç bir işğalçılıq niyyətindən irəli gəlmir, biz sadəcə olaraq öz qanuni ərazilərimizi işğaldan azad etmək və bununla da ərazi bütövlüyümüzü bərpa etmək məqsədindəyik. Xalqımız sülhsevər mövqeyini daim beynəlxalq müstəvidə sübut edib və Azərbaycan sülh tərəfdarı olan bir ölkə kimi dünyanın münaqişə bölgələrində sülhyaratma əməliyyatlarında fəal iştirak edib. Bu bir daha sübut edir ki, sülh və humanizm Azərbaycanın əsas dövlətçilik prinsiplərindən biridir.

Azərbaycan Prezidenti İlham Əliyevin təlimdə çıxışında vurğuladığı aşağıdakı fikirlər bu gün ordu sıralarında xidmət edən hərbi qulluqçılarda böyük ruh yüksəkliyi yaradıb. O qeyd edib ki, "Azərbaycan güclənir, iqtisadi gücümüz hərbi gücə çevrilir. Biz bundan sonra da hərbi imkanlarımızı artıracağıq, bundan sonra da danışıqlar masasında prinsipial mövqeyimizi gücləndirəcəyik. Bizim prinsipial mövqeyimizin əsas mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir, Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir..."

Dövlət başçımızın orduya, onun əsgər və zabitinə, hər bir döyüşçüsünə bəslədiyi böyük inam məhz bizi qələbəyə ruhlandıran ən təsirli vasitədir və biz istənilən anda Ali Baş Komandanın əmrini yüksək səviyyədə, qələbə əzmi ilə yerinə yetirməyə hazır olmalıyıq.


**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**


# Müdafiə naziri komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ilə işçi görüşü keçirib

***İyulun 1-də Müdafiə Nazirliyində Əlahiddə Ümumqoşun Ordusu, birlik, birləşmə, qoşun qismləri, hərbi hissələrin, Müdafiə Nazirliyinin xüsusi təyinatli təhsil müəssisələrinin komandir və rəislərinin şəxsi heyətlə iş üzrə müavinlərinin metodiki toplantısı keçirilib.***

Toplantıda Şəxsi Heyət Baş İdarəsi, Tibb Baş İdarəsi, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi, Hüquq İdarəsinin nümayəndələri və qonaq qismində dəvət olunan Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri, hüquq üzrə fəlsəfə doktoru Simran Həsənov iştirak ediblər.

Tədbirdə Silahlı Qüvvələrdə son zamanlar baş verən bəzi nizamnamədənkənar hadisələr təhlil olunub, tərbiyə işinin təkmilləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı səviyyəsinin artırılması, hərbi qulluqçuların milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsinə dair bir sıra məsələlər, şəxsi heyətlə iş üzrə vəzifəli şəxslərə gələcək fəaliyyətlərinin daha da gücləndirilməsi istiqamətində tövsiyələrin hazırlanması üçün təkliflər müzakirə edilib.

Metodiki toplantıda həmçinin Vətənə, dövlətə sədaqət, nizamnamələrin tələblərinin şəxsi heyətə öyrədilməsi, qanunlara hörmətlə yanaşılması, hüquq pozuntularının, nizamnamədənkənar hərəkətlərin qarşısının alınması və s. məsələlər barədə fikir mübadiləsi aparılıb.

Sonra tədbir iştirakçılarının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşü olub.

Müdafiə naziri tərbiyə və mənəvi-psixoloji hazırlıq işinin hazırkı vəziyyəti ilə bağlı geniş və ətraflı təhlil aparıb, görülən tədbirlər, onun daha da yüksək səviyyədə təşkili və gücləndirilməsi istiqamətində tövsiyələrini verib.

Müdafiə naziri qabaqcıl təcrübədən istifadə, şəxsi nümunə, sosial ədalət və bərabərlik mühitinin yaradılması, kollektivlərdə münasibətlərin sağlam mühit şəraitində qurulması, hərbi hissələrdə xidmətin gününün nizam qaydalarına uyğun təşkili üçün normal şəraitin yaradılması, sağlam rəqabətin, hərbi hissələrdə əsgər yoldaşlığı, hərbi xidməti münasibətlərin qarşılıqlı dostluq, hörmət və gənc əsgərlərə qayğı əsasında qurularaq davam etdirilməsinin formalaşdırılması və bir çox məsələlərlə bağlı fikirlərini görüş iştirakçılarına çatdırıb.

Bildirilib ki, qeyd olunan bu fəaliyyətlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tələb və tapşırıqlarına, Müdafiə nazirinin əmrlərinə müvafiq olaraq daha da yüksək səviyyədə təşkil edilib həyata keçirilməli, eyni zamanda komandirlərin və onların şəxsi heyətlə iş üzrə müavinlərinin daim diqqət mərkəzində olmalıdır.

Görüşdə şəxsi heyətin Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası və qorunması, düşmən təxribatlarının qarşısının alınmasında vəzifə borclarını şərəflə yerinə yetirmələri məqsədilə tərbiyə işinin və mənəvi-psixoloji hazırlığın təşkil edilib həyata keçirilməsi məsələsi xüsusi vurğulanıb.

Nazir bildirib ki, milli-mənəvi dəyərlərimizə yaxından bələd olan, tariximizi yaxşı bilən, Vətənimizi, torpağımızı, xalqımızı ürəkdən sevən, silah və texnikanı müasir tələblər baxımından dərindən öyrənən, əmrləri layiqincə yerinə yetirən kiçik komandirlər tərbiyə edilib yetişdirilməli və əsgərlər hazırlanmalıdır.

Sonda Müdafiə naziri general-polkovnik Zakir Həsənov görüş iştirakçılarına təlim-tərbiyə işinin daha yüksək səviyyədə təşkili və mənəvi-psixoloji hazırlıq işinin gücləndirilməsi ilə bağlı konkret tapşırıqlar verib.


**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

*Ön xətdən reportaj*

# "Düşmən gülləsi ilə ölməyə yox, düşməni yer üzündən silməyə gəlmişəm"





***Səhər saatlarında redaksiyaya daxil olub təzəcə salamlaşırdım ki, ezamiyyətə getmək tapşırığı aldım. Növbəti ezamiyyətimin Gədəbəy rayonunda yerləşən "N" hərbi hissəsinə olduğu bildirildi. Bu xəbəri ikiqat sevinclə qarşıladım. Birincisi, havanın belə isti keçdiyi dövrdə Azərbaycanın dağlıq bölgələrindən olan Gədəbəyə ezamiyyətə getməyim lap yerinə düşdü. İkincisi, və ən əsası isə orduda ilk xidmət yerimin bu hərbi hissə olmasıdır. Bir zabit olaraq həqiqi hərbi xidmət keçdiyim bu hərbi hissəyə indi hərbi müxbir olaraq yollanıram. Bu həm qürurverici, həm də sevindiricidir. Sevindiricidir ki, köhnə dostlarımı görəcəyəm, qürurvericidir ki, əvvəllər xidmət etdiyim bu yerlərə "Azərbaycan Ordusu" qəzetinin hərbi müxbiri kimi gedirəm. İki ilə yaxın bu hərbi hissədə olmuşam və burada həm təcrübə, həm də gözəl dostlar qazanmışam.***

Nəhayət, çantamı çiynimə atıb yollanıram Gədəbəy rayonuna. Qarşımda 471 km yol var. Asfalt yolda maşının sürətlə şütüməsi, radioda səslənən həzin xalq mahnısı... Beləcə yolboyu gözümdə xatirələr canlanır. Gədəbəydə yaşadığım dövr kino lenti kimi gözlərimin önündən keçir...

Artıq Gədəbəy rayonuna qalxan Yasamal aşırımındayam. Uzunluğu 6 km olan bu aşırımı qalxdıqca havanın dəyişdiyini hiss edirəm. Avtomobilin pəncərəsindən içəri daxil olan dağ havası ciyərlərimə yayılır. Aşırımı qalxdıqda elə bil qulaqlarım tutulur. Səbəbi isə atmosfer təzyiqinin yüksəlməsidir. Bir yerdə sərin bulaq suyundan içib yoluma davam edirəm.

Artıq hərbi hissəyə çatmağıma çox az qalıb. Rayon mərkəzində məni gizirlər Nahid Tağıyev və Rəşad Hüseynzadə qarşılayır. Köhnə dostların sevinci gözlərindən hiss olunurdu. Yolboyu söhbət edirik. Gizir Hüseynzadə son dövrlərdə güclü təlimlərin keçirilməsindən ağız dolusu danışır. Belə təlimlərin şəxsi heyətdə ruh yüksəkliyi yaratdığını bildirir. Nahid də söhbətə qoşularaq bildirir ki, biz bu qüvvə ilə işğal olunmuş torpaqları almaq qüdrətindəyik. Gizirlərdə olan bu ruh yüksəkliyi məni fərəhləndirir.

Budur, hərbi hissənin qərargahındayam. Polkovnik-leytenant Asif Fərəcovla görüşürəm. Təcrübəli zabit idarə heyətinin postlara yollandığını bildirir.

- Biz çalışırıq ki, Vətənimizin keşiyində dayanan şəxsi heyətin heç bir problemi olmasın, - deyir zabit. - Hazırda ordu rəhbərliyi cəbhə bölgəsinə diqqət və qayğı ilə yanaşır. Cəbhə bölgəsinə edilən səfərlər də bunun bariz nümunəsidir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissəmizdə olub. Şəxsi heyətlə görüşüb. Mövcud problemlərlə maraqlanıb, lazımi tapşırıqlar verib.

Əvvəlki illərlə müqayisədə ordumuzda ərzaq və əşya təminatında yaxşıya doğru xeyli irəliləyiş var. Bu gün Azərbaycan əsgəri yüksək kalorili ərzaqla təmin edilir. Belə şəraitin yaradılması şəxsi heyətdə ruh yüksəkliyi yaradır.

Söhbətimizi yekunlaşdırıb ön xəttə yola düşürük. Yol yoldaşım mayor Rüstəm Məmmədovla həmsöhbət oluruq. O, şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan məsul zabitlərdəndir. Mütəmadi olaraq ön xətdəki mövqelərimizə yollandığını, şəxsi heyətin qayğıları ilə məşğul olduğunu qeyd edir. "Bu gün ordu sıralarına çağırılan gənclər Vətənə sədaqət və milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə olunurlar. Ölkəmiz müharibə şəraitindədir. Buna görə də cəmiyyətimiz gənc nəslin vətənpərvər ruhda yetişməsinə çalışmalıdır. Unutmaq olmaz ki, bu gənclərə Vətənimiz, torpaqlarımız əmanət olunacaq. İşğalda olan torpaqlarımızın azad olunması bu gənclərə tapşırılacaq".

Çox çətin yollarla irəliləyirik. Avtomobil bu yollarda qalxmaqda çətinlik çəksə də, sürücümüz kiçik çavuş Vəli Allahverdiyevin təcrübəli olduğu hiss olunur. Əslən Gədəbəy rayonundan olan sürücü on ildən çoxdur ki, müddətdən artıq hərbi xidmət etdiyini, bu yolları əlinin içi kimi tanıdığını bildirir.

Xeyli dağ, təpə aşdıqdan sonra düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizlə birgəyik. Vaqon tipli əsgər yataqxanası, təmiz səngərlər, ayıq-sayıq döyüş növbətçiliyi səliqə-sahmandan və nizam-intizamdan xəbər verir. Döyüşçülər müxtəlif atıcı silahlarla təmin olunublar. Onlar düşmənlə üz-üzə dayanmağın məsuliyyətini dərk edir, sayıqlığı əldən vermirlər.

Birinci postda leytenant Ruslan Eynullayevlə qarşılaşırıq. 2011-ci ildə Azərbaycan Ali Hərbi Məktəbini bitirən taqım komandirinə görə, ön xətdə xidmət etmək əsgər və zabitlər üçün məsuliyyətli və şərəflidir. Təmas xəttində olmalarına baxmayaraq, yuxarı komandanlığın diqqətindən danışan zabit son zamanlar göstərilən diqqət və qayğıdan söz açmağı da unutmadı. Qeyd etdi ki, məişət şəraitinin yaxşılaşdırılması, ərzaq təminatının gücləndirilməsi əsgərlərdə də ruh yüksəkliyi yaradır.

Taqım komandirindən babası Əli Eynullayevin Qarabağ müharibəsinin iştirakçısı olduğunu öyrənirəm. Zabitin sözlərinə görə, babasının danışdığı çətin günlər geridə qalıb. Hazırda düşmən üzərində qələbə qazanmaq üçün hər bir şərait və təminat var.



Müddətdən artıq xidmət edən hərbi qulluqçu kiçik çavuş İlham İbrahimov da söhbətimizə qoşulur və Azərbaycan Ordusunda xidmət etməkdən qürur hissi keçirdiyini bildirir. Gədəbəy rayonunda dünyaya göz açan kiçik çavuş 1998-2000-ci illərdə cəbhə bölgəsindəki "N" hərbi hissəsində əsgər kimi xidmət edib. Müddətdən artıq hərbi xidmətə yenicə gəldiyini bildirən İbrahimov ordumuzda köklü dəyişikliklər olduğunu bildirərək, atasının da 1992-1993-cü illərdə könüllü döyüşçü kimi müharibədə iştirak etdiyini qeyd etdi.

18 aydır ki, cəbhə xəttində xidmət edən əsgər Vasif Ələsgərovun da deməyə sözü çoxdur. Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan əsgər artıq bir neçə günə tərxis olunacağını dedi. Özündən sonra yeni xidmətə gələn əsgər yoldaşlarına da öz tövsiyələrini bildirdi.

- Azərbaycan əsgərisənsə, deməli, güclüsən və bacarıqlısan, - dedi təcrübəli döyüşçü. - Ayıq-sayıq və diqqətli olun. Komandirlərin verdikləri tapşırıqları vaxtında və düzgün yerinə yetirin. Nizam-intizamlı və nümunəvi olun. Ən əsası, düşməndən qorxmayın. Vətən uğrunda canını verməyə hazırsansa, Vətəni canından çox sevirsənsə, qorxmayacaqsan. Çünki canını sevən insan qorxur.

Bu ifadələr insanın qəlbindəki incə tellərə təsir edir. Bu torpaqda dünyaya göz açmışıq, bu torpağın naz-neməti ilə böyüyüb boya-başa çatmışıqsa, deməli, Vətənimizi, torpağımızı canımızdan çox sevməliyik.

Növbəti həmsöhbətim əsgər Qorxmaz Ağayevdir. Cəlilabad rayonundan hərbi xidmətə çağırılıb. Bu yaxınlarda hərbi xidmətini tamamlayıb ordu həyatına əlvida deyəcək. Əsgər Ağayev komandirlərindən razı olduğunu bildirərək xüsusilə taqım komandiri leytenant Eynullayevin onların problem və qayğıları ilə yaxından maraqlandığını qeyd etdi. Elə yanımızdaca əsgər yoldaşlarına öz ürək sözlərini dedi:

- Vətənimizi sevin. Elə sevin ki, onun hər qarışı üçün canınızdan keçməyə hazır olasınız. Ağsaqqal söhbətlərindən dəfələrlə eşitmişik ki, Vətən sevgisi imandan gəlir. Vətənə sədaqət, bağlılıq insan ruhundan gəlir. Vətəni ruhunuzla, mənliyinizlə sevin.

Diqqətimi çəkən əsgərlərdən biri də Fuad Xanrzayev oldu. Söhbətimiz zamanı dünyagörüşü və intellekti ilə məni cəlb etdi. Sumqayıt şəhərindən hərbi xidmətə çağırılan əsgər deyir ki, 9 aydır hərbi xidmətdədir. “Heç bir problemim yoxdur. Problemi olan yoldaşımı da görməmişəm. Əsgər yoldaşlarım Ağayev və Ələsgərov xidmətlərini başa vurub öz ailələrinin yanına qayıdırlar. Həm sevinirəm, həm də üzülürəm. Sevinirəm ki, öz sevdiklərinə qovuşacaqlar. Üzülürəm ki, iki əsgər yoldaşımızdan ayrılırıq”.

Sonra söhbətinə davam edərək bildirdi ki, ön xətdə xidmət etməkdən qürur duyur. “Biz qətiyyən düşməndən çəkinmirik, qorxmuruq. Hər an əldə silah ayıq-sayıq dayanıb Ali Baş Komandanın əmrini gözləyirik. Valideynlərimə söz vermişəm ki, Vətənimə layiqli övlad kimi xidmət edəcəyəm. Mən bura namərd gülləsi ilə ölməyə yox, namərdi yer üzündən silməyə gəlmişəm”.

Qusar rayonundan olan əsgər Elanay Hacıverdiyev də deyir ki, burada hər birimizin normal xidmət etməsi üçün hər cür şərait yaradılıb. “Düşmənlə üz-üzə xidmət etmək, şübhəsiz, şərəflidir. Düşmən atəşkəsi pozduqda biz də komandirimizin əmri ilə qarşı tərəfi dərhal susdurur və düşmənə layiqli cavabını veririk”.

Qayıtmaq vaxtıdır. Çünki qara buludlar göy üzünü alıb. Yəqin ki, yağış yağacaq. Əsgərlərlə vidalaşıb getmək istəyirdim ki, əsgər Fuad Xanrzayev dilləndi:

- İnşallah, vaxt gələr, bu yerlərdən qələbə reportajını hazırlayarsız və yenə də müsahibiniz bizlər olarıq.

Beləliklə, ilk xidmət yerimdə ezamiyyətim başa çatır və yaddaşımda unudulmaz xatirəyə çevrilir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**3 iyul 2014-cü il.**

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyi Müdafiə Nazirləri Şurasının iyulun 4-də keçiriləcək növbəti iclasında iştirak etmək üçün Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərinə yola düşüb.

Həmin gün Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da iştirak etdiyi Müstəqil Dövlətlər Birliyi Müdafiə Nazirləri Şurasının növbəti iclası işinə başlayıb.

* * *

**3 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 19 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Ağdam rayonunun Yusifcanlı, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili, Tərtər rayonunun Çaylı, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

**3 iyul 2014-cü il.**

Düşmənin atəşkəsi pozması nəticəsində 1996-cı il təvəllüdlü, Laçın rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Məmmədov Elsevər Həsən oğlu yaralanıb. Əsgərin vəziyyəti kafidir.

* * *

**4 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 37 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Ağdam kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Şuraabad, Nəmirli, Baş Qərvənd, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Tərtər rayonunun Qızıl Oba, Xocavənd rayonunun Kuropatkino, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında, Cəbrayıl və Göygöl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

* * *

İyulun 3-ü axşam saatlarında düşmənin atəşkəsi pozması nəticəsində 1995-ci il təvəllüdlü, Bərdə rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Həsənov Nurlan Azər oğlu yaralanıb, vəziyyəti kafidir.

İyulun 4-ü gecə saatlarında isə 1989-cu il təvəllüdlü, Qazax rayonundan hərbi xidmətə çağırılmış gizir Nağıyev Anar Talıb oğlu yaralanıb, vəziyyəti sabit-ağırdır.

***Ölkəmizin iqtisadı qüdrəti artdıqca başqa sahələrdə olduğu kimi, müstəqilliyin və dövlətçiliyin dayağı sayılan Silahlı Qüvvələrdə də quruculuq işləri uğurla davam etdirilir. Ötən illərlə müqayisədə ordumuz tam yeniləşərək monolit qüvvəyə çevrilmişdir. İşğalçı Ermənistanla müqayisə olunmaz dərəcədə inkişaf edən, yeni-yeni uğurlara imza atan respublikamız regionun lider dövləti kimi tanınır. Hazırda ölkə rəhbərliyi Silahlı Qüvvələrin müasir tələblər səviyyəsində qurulmasına önəm verir. Prezident, Ali Baş Komandan İlham Əliyev dəfələrlə bildirmişdir ki, ordunun möhkəmləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması qarşımızda duran ən aktual məsələdir. "Biz bu işlərlə məşğuluq və bundan sonra da bu istiqamətdə işlərimizi davam etdirəcəyik".***

# Qələbəyə inam günbəgün artır



Biz bu yüksəlişi, tərəqqini bölgələrdə yerləşən hərbi hissələrdə də görürük. Artıq ötən illərlə müqayisədə hərbi hissələrdə yaradılan şərait, göstərilən diqqət və qayğı şəxsi heyətin ruh yüksəkliyini artırır, döyüş əzmini gücləndirir. Təcrübəli zabit Vüqar Cəfərov bildirdi ki, orduya göstərilən yüksək qayğı şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, əsgərlərin döyüş hazırlığına xüsusi fikir verilir. Bizə etibar olunan Vətən torpaqları mərdliklə qorunur. Təxribat törətməyə çalışan düşmən dərhal susdurulur. Onlar yaxşı hiss edirlər ki, Azərbaycan Ordusu artıq müasir tələblər səviyyəsində qurulan bir ordudur.

Ön xətdə Vətən keşiyində dayanan, səngər həyatı yaşayan Vətən müdafiəçiləri ilə görüşlərimiz deyilənlərin əsil həqiqət olduğunu bir daha diqqətə çatdırır. Onlar xalqımızın qəhrəman övladlarının layiqli davamçıları olacaqlarını qarşılarına məqsəd qoyublar. Yevlax rayonundan hərbi xidmətə çağırılmış gənc döyüşçü Bayram Məmmədov deyir:

- Təcrübəli və qayğıkeş komandirlərimdən hərb sənətini öyrənməklə ön xətdə xidmətimi davam etdirirəm. Qürur hissi keçirirəm ki, müstəqil Azərbaycanın əsgəri adını daşıyıram. Ancaq biz ata-babalarımızın Böyük Vətən müharibəsi illərində göstərdikləri qəhrəmanlıqlardan nümunə götürməli və sübut etməliyik ki, biz Babəklər, Xətailər, Cavanşirlər kimi qəhrəmanlar yetirən Vətənin övladlarıyıq.

Vətənpərvər zabit Mahir İbrahimov söhbətimizdə bildirir ki, tabeliyində olan şəxsi heyət döyüş tapşırıqlarını müntəzəm yerinə yetirir, düşməni heç vaxt nəzarətsiz qoymur. Hər bir əsgərimiz qəhrəman Vətən oğullarının həyatını, keçdiyi döyüş yolunu özlərinə örnək hesab edirlər. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun göstərdiyi misilsiz rəşadət əsgərlərimizə ən yaxşı örnəkdir.

Müşahidə məntəqəsində döyüş növbətçiliyi çəkən əsgər Samir Həsənov bir ilə yaxındır ki, hərbi xidmətdədir. Nümunəvi əsgər kimi tanınır. Ailələrinə komandanlıq tərəfindən təşəkkür məktubu ünvanlanıb və bu məktubda Həsənovlar ailəsinə mərd, vətənpərvər, cəsur övlad böyütdüklərinə görə komandanlıq tərəfindən minnətdarlıq ifadə olunub. Vətənpərvər döyüşçü ürək sözlərini belə ifadə edir:

- Əsgərlik həyatım mənim üçün əsl həyat məktəbinə çevrilib. İlk növbədə mənə Vətənin müdafiəsini öyrədən, hərbi həyatın sirlərini alışdıran komandirlərimə minnətdaram. Onların köməyi ilə döyüş vərdişlərini mənimsəyərək müsəlləh əsgər kimi Vətənimizin müdafiəsində dayanmışam.

Növbəti həmsöhbətlərim olan döyüşçülərdən Vasif Mehdiyev, Elçin Əhmədov və başqaları qısa vaxt ərzində bacarıqlı döyüşçülər kimi formalaşdıqlarını bildirdilər.

Həmişə nümunəvi xidməti ilə seçilən əsgər Elçin Əhmədov bir neçə gündən sonra ordu sıralarından tərxis olunacaq. O bildirdi ki, əsgəri həyatın hər günü onun üçün qiymətlidir. Ən unudulmaz, yadda qalan hadisə isə Azərbayan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə əsgərlərlə olan görüşləridir. Həmin görüşdə döyüş hazırlığında fərqləndiyinə görə Elçin Əhmədova da qiymətli qol saatı hədiyyə edilib. O bu saatı qiymətli hədiyyə kimi saxlayacağına və istənilən an yenidən Vətən uğrunda döyüşlərə atılacağına söz verdi.

Səngər həyatı yaşayan igidlərimizdən ayrılsaq da, qəlbimizdə xalqımızın böyük intizarla gözlədiyi qələbəyə inam hissi daha da artdı. Çünki ölkəmizin beynəlxalq aləmdə artan nüfuzu, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yeritdiyi uğurlu siyasət, orduya göstərilən böyük diqqət və qayğı hər gün bizi qələbəyə yaxınlaşdırır.

**Mübariz MUSAOĞLU**

# “Silahlı Qüvvələrimizdə qanunçuluğun təmin edilməsi ordumuzun inkişafına böyük təkan verir”

## Müsahibimiz Müdafiə Nazirliyi Hüquq İdarəsinin rəisi ədliyyə polkovniki Rauf Kişiyevdir



***- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi hüquq sisteminin möhkəmləndirilməsi, hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquq və azadlıqlarının təmin olunması, sosial müdafiəsinin gücləndirilməsi kimi məsələlər Müdafiə Nazirliyi rəhbərliyinin prioritetlərindən biridir. Bununla əlaqədar olaraq görülmüş bir çox işlər ordu ictimaiyyətinə yaxşı məlumdur. Qeyd olunan fəaliyyətlə bağlı görülən işləri necə dəyərləndirərdiniz?***

- Həqiqətən də, ordu quruculuğunda müşahidə olunan nailiyyətlər və uğurlar göz qabağındadır. İlk növbədə qeyd etmək istərdim ki, ordumuzun gücünü artıran və hərbi qulluqçuların döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğıdır. Bu gün Azərbaycan əsgəri Vətəni şərəflə qoruyur. Mərkəzləşmiş idarəetmə sistemini həyata keçirən, vahid komandanlıq altında, müasir hərbi texnika ilə təchiz olunmuş Silahlı Qüvvələrimiz düşmənə sarsıdıcı zərbə endirmək iqtidarındadır. Ordumuzun daha da möhkəmləndirilməsi üçün, şübhəsiz ki, hərbi qulluqçuların layiqli həyat səviyyəsinin təmin edilməsi zəruridir. Bu hədəfə gedən yol isə hüquqdan keçir. Çünki qanunların birmənalı tətbiqi, hər kəsin hüququnun tələb olunan səviyyədə təmin edilməsi və bütövlükdə sağlam mühitin bərqərar olması döyüş gücünü ikiqat artırır. Hərbi qulluqçuların xidməti vəzifələrini uğurla yerinə yetirməsi həm də onlara göstərilən münasibətdən, diqqət və qayğıdan asılıdır. Ədalətli yanaşma və layiqincə qiymətləndirmə uğur gətirir. Hərbi qulluqçuların və ailə üzvlərinin, həmçinin Silahlı Qüvvələrdə çalışan mülki şəxslərin hüquqlarının qorunması və bu normativ-hüquqi aktın Silahlı Qüvvələrdə tətbiqi üçün Müdafiə naziri tərəfindən müvafiq əmr imzalanmışdır. Orada da təsbit edildiyi kimi, hüquqi təminatda əsas yerlərdən birini maarifləndirmə tutur. Bunu misallarla göstərsək daha yaxşı səslənər. Məsələn, müəyyən kateqoriyadan olan mülki işçilərin hüquqi maariflənməsinin yaxşılaşdırılması üzrə proqrama siyasi-iqtisadi, sosial-mədəni və hüquqi aspektlərin öyrədilməsi də əlavə edilmişdir. Bu mövzu hərbi qulluqçuların ictimai-siyasi hazırlıqlarında da dərs mövzusudur. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Hərbi qulluqçular da qanunvericiliklə onlara verilmiş hüquqlardan müəyyən olunmuş qaydada istifadə edə bilərlər. Müdafiə Nazirliyinin timsalında dövlət də öz növbəsində onlara bu hüquqlardan istifadə etmək üçün şərait yaradır və onların hüquqlarının qorunması üçün hüquqi bazanın yaradılmasına cavabdehdir.

Bu baxımdan ordumuzun gündəlik fəaliyyətində həyata keçirilən islahatlar çərçivəsində hərbi hüquqşünasların da öz töhfəsi vardır. Ümumiyyətlə, istənilən cəmiyyətin inkişafı onun hüquqi təməlinin necə qurulmasından asılıdır. Çünki insan həyatını və bütövlükdə cəmiyyətin idarə olunmasını qaydalarsız, son nəticədə isə hüquqi və demokratik dövlətin qurulması və inkişafını onu tənzimləyən qanunlarsız təsəvvür etmək qeyri-mümkündür.

Silahlı Qüvvələrimizdə qanunçuluğun təmin edilməsi, hərbi intizamın möhkəmləndirilməsi sahəsində dövlətimizin həyata keçirdiyi tədbirlər sistemində müvafiq qaydaların müəyyənləşdirilməsi, onların mövcud qanunvericiliyin tələbləri nəzərə alınmaqla təsbit edilməsi, ümumilikdə inkişafda olan Azərbaycanın müasir cəmiyyətinin tərkib hissəsi olan ordumuzun inkişafına da böyük təkan verir.

Milli qanunvericiliyin ardıcıl inkişafında beynəlxalq hüquq normalarının müstəsna rolu danılmazdır. Azərbaycan Silahlı Qüvvələri tam bərabərhüquqlu tərəfdaş olaraq, əməkdaşlıq etdiyi xarici ölkələrin Silahlı Qüvvələrinin hüquq sahəsindəki təcrübəsini daim öyrənir, müsbət nailiyyətlərin Silahlı Qüvvələrimizdə həyata keçirilməsinin mümkünlüyünü nəzərdən keçirir.

Biz həm ölkəmizin ayrı-ayrı qurumları ilə sıx əməkdaşlıq edir, həm də dünya ordularının hüquq təşkilatları ilə əlaqələr yaradaraq təcrübə mübadiləsi həyata keçiririk. Hərbi hüquqşünaslar "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində müxtəlif ölkələrdə keçirilən seminarlarda iştirak edirlər. Hərbi qanunvericiliyin təkmilləşdirilməsində biz həmin ölkələrin təcrübəsindən istifadə edirik, o cümlədən də onlar bizim hüquq sistemindən və hərbi sahədə tətbiq olunan qanunçuluq prinsiplərindən müəyyən nümunələr götürürlər. Hazırda idarəmizin nəzdində fəaliyyət göstərən hərbi təhqiqat orqanının yaradılması bəzi ölkələrdə böyük maraq yaratmışdır. Qazaxıstan, Türkiyə və s. kimi ölkələrin hərbi hüquqşünasları birgə seminarlarda yeni yaradılmış qurumla bağlı təfərrüatları öyrənib öz ordularında həyata keçirməyə maraq göstərirlər.

Bu baxımdan ölkə qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlərdən "İnsan hüquqları haqqında Ümumi Bəyannamə", "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyası, "İşgəncələrin, digər qəddar, insan ləyaqətini alçaldan rəftar və cəza növlərinin qadağan olunması haqqında" Konvensiyaların və onların protokollarının tələblərinin ölkədaxili qanunvericilik aktlarına sirayətini göstərmək olar.

Bir çox təqdirəlayiq işlərin görülməsinə rəğmən, Müdafiə Nazirliyinin Hüquq İdarəsi bununla öz fəaliyyətini məhdudlaşdırmır və son hədəfə doğru - hərbi qulluqçuların hüquqlarının tam və qeyd-şərtsiz təmin edilməsi, onların xidməti fəaliyyətinin uğurlu həyata keçirilməsi üçün tələb olunan hüquqi bazanın təşəkkül tapmasında öz səylərini davam etdirir.

***- Hüquqi islahatlar, hərbi hüquq sistemində yeniliklərlə bağlı nələri qeyd etmək olar, daha hansı yeniliklər nəzərdə tutulur?***

- Hərbi hüquq sisteminin təkmilləşdirilməsi qanunvericiliyin daim diqqətindədir. Bu müstəvidə Müdafiə Nazirliyinin də fəaliyyətini qeyd etmək yerinə düşər. Müdafiə Nazirliyi ölkənin əsas dövlət orqanlarından biri kimi, bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlamış, aidiyyəti dövlət qurumları ilə razılaşdırmış və onları müvafiq instansiyaya təqdim etmişdir. Barəsində danışılan layihələrin bir qismi üzrə müvafiq işlər tamamlanmaq üzrədir. Yəqin ki, sizinlə edəcəyimiz növbəti söhbətlərdə biz artıq layihələr ətrafında deyil, qəbul edilmiş sənədlərin icra səviyyəsi barədə fikir mübadiləsi aparacaq, rast gəlinən çətinliklərin aradan qaldırılması yolları haqqında birgə düşünəcəyik.

Lakin, təvazökarlıqdan kənara çıxaraq, bəzi nailiyyətlərimiz haqqında olan məlumatları oxucularımızla bölüşmək istərdim.

Hərbi qulluqçuların hüquq və azadlıqlarını, vəzifələrini və statusunu müəyyən edən, hərbi qanunvericiliyin əsas və bəlkə də ən birinci olan normativ hüquqi aktı olan "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun yeni layihəsi hazırlanmışdır. Həmin layihə Müdafiə Nazirliyinin Hərbi Kollegiyasının geniş iclasında müzakirə edilmiş, verilmiş təkliflər nəzərə alınmış və layihə təkmilləşdirilərək son versiya şəklinə salınmışdır. Qanun layihəsinə hərbi qulluqçuların, onların ailə üzvlərinin, ehtiyata və istefaya buraxılmış şəxslərin sosial və hüquqi təminatının daha da yaxşılaşdırılması üçün bir sıra yeni müddəalar daxil edilmişdir. Bundan başqa, layihə hərbi xidmətin hər bir vətəndaşın şərəf işinə çevrilməsi, hərbi intizamın yüksəldilməsi və şəxsi heyətin qanun-qaydalara hörmət ruhunda tərbiyə olunması, hərbi qulluqçuların sosial-məişət şəraitinin müasir tələblər səviyyəsində yaxşılaşdırılması və sair istiqamətlərdə hüquqi nizamlanmanı ehtiva edən müddəaların reallaşdırılmasını nəzərdə tutur.

Silahlı Qüvvələrdən ehtiyata və istefaya buraxılmış şəxslərə istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi məqsədilə Nazirlər Kabinetinin müvafiq qərarının layihəsi hazırlanmışdır. Göründüyü kimi, həmin şəxslərin hüquqlarının təmin olunması üçün zəruri tədbirlər davam etdirilir.

Silahlı Qüvvələrdə aparılan islahatlar çərçivəsində hərbi hissə komandirlərinin hərbi nizamnamələr və normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlarının icrasına imkan verən, habelə hərbi geyim formalarının yenilənməsini, fərqləndirmə nişanlarının daşınması qaydalarının təkmilləşdirilməsini nəzərdə tutan sənədlərin layihələri hazırlanmışdır.

Silahlı Qüvvələrin hərbi nizamnamələrinin yeni redaksiyalarının hazırlanmasında yaxından iştirak edilmiş, Müdafiə Nazirliyinin Aparatına daxil olan idarə, şöbə və xidmətlərinin hüquq və vəzifələrini, fəaliyyət istiqamətlərini müəyyənləşdirən əsasnamələrin hazırlanmasında hüquqi yardım göstərilmiş və hüquqi ekspertizalar keçirilmişdir.

***- Hərbçilər hüquqi yardımı necə əldə edə bilər, hər hansı mübahisəli məsələdə onların hüquqlarını müdafiə mexanizminin sadə forması haqqında nələri qeyd etmək olar?***

- Hüquqi müdafiənin, daha doğrusu, hüququn müdafiəsinin təmin olunması bir tərəfdən qanunvericilikdə bəyan olunmuş, digər tərəfdən hüquqi yardım almaq hüququnun özünün müvafiq mexanizmləri mövcuddur.

Silahlı Qüvvələrimizin hər bir hərbi qulluqçusu, Azərbaycan Respublikasının vətəndaşı kimi, öz hüquqlarını həyata keçirmək üçün və ya pozulmuş hüququnun bərpası üçün aidiyyəti dövlət orqanlarına, habelə hüquq-mühafizə orqanlarına və məhkəmələrə real müraciət etmək imkanına malikdir. Bunun üçün kifayət qədər hüquqi baza mövcuddur. Eyni zamanda, Müdafiə Nazirliyinə istər hərbi qulluqçulardan və ya onların ailə üzvlərindən, istərsə də vətəndaşlardan daxil olan bütün müraciətlər səlahiyyətləri daxilində aidiyyəti vəzifəli şəxslər tərəfindən mahiyyəti üzrə baxılır, zəruri tədbirlər görülür və bu haqda müraciət müəllifləri məlumatlandırılırlar.

Müdafiə Nazirliyinin rəsmi internet portalında (mod.gov.az) "Müraciətlər" bölməsi vardır. Həmin bölmənin yaradılması Azərbaycan Respublikası Prezidentinin diqqətdə saxladığı elektron müraciətlərə baxılması işinin qurulması çərçivəsində həyata keçirilmişdir. Daxil olan bütün elektron müraciətlər baxılması üçün aidiyyəti üzrə müvafiq idarə və xidmətlərə verilir, müraciət müəlliflərinə isə bu müraciətlərin alınması barədə dərhal təsdiqetmə bildirişləri göndərilir.

Müdafiə Nazirliyində müəyyən olunmuş müddətlərdə müraciətlərə baxılması işi təhlil olunur, müraciətlər mahiyyətindən asılı olaraq təsnifatlandırılır, müraciət edən şəxslərin qaldırdığı məsələlər prioritetləşdirilərək əsas diqqətin hansı sahələrə ayrılmasının zəruriliyi müəyyənləşdirilir və bununla bağlı lazımi addımlar atılır.

Bu işin şəffaflığı və ictimaiyyət üçün açıq olması həm də bunda təzahür edir ki, Müdafiə Nazirliyi digər dövlət orqanları kimi, müraciətlər üzrə görülmüş tədbirlər haqqında mütəmadi olaraq hesabatlar verir. Məsələn, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İnsan hüquqları üzrə Müvəkkilin aparatına (Ombudsmana) və digər nəzarətedici orqanlara vaxtaşırı hesabatlar təqdim olunur.

Müdafiə Nazirliyi hərbi qulluqçularının hüquqlarının təmin olunması üçün həyata keçirdiyi fəaliyyət və göstərdiyi dəstək öz-özündə bütün problemləri həll edə bilməz. Burada əsas vəzifə həm də vətəndaşların üzərinə düşür. Hüquqi maariflənmə və hüquq mədəniyyətinin yüksəldilməsi üçün hər bir hərbi qulluqçu özü təşəbbüs göstərməlidir. Bu baxımdan bütün hərbi qulluqçularımızı hüquqi savadlanmaya dəvət etmək istərdim. Beləcə, hər kəs bu böyük işdə öz kiçicik töhfəsini verməklə Müdafiə Nazirliyinə də çətin işlərin həllində kömək etmiş olar.

Heç kəs hərbi qulluqçunu şikayət vermək hüququndan məhrum edə bilməz. Üstəlik, qanunvericiliyin tələblərinə görə, şikayət verəni cəzalandırmaq və ya buna görə təqib etmək qadağandır. Ona görə də bütün hərbi qulluqçularımızı öz hüquqlarını öyrənməyə və onları müdafiə etməyə, həmçinin bununla bağlı komanda üzrə məlumat verməyə çağırıram. Çünki yalnız bu yolla komandirlərlə tabelikdəki şəxslər arasında tam etimad mühiti yaratmaq, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə nail olmaq mümkündür.

Hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş tədbirlər sırasında həm də hüquq idarəsinin əməkdaşlarının düşmənlə bilavasitə təmas xəttində yerləşən bölmələrə ezamiyyətlərini qeyd etmək yerinə düşərdi. Cari ilin birinci yarısında düşmənlə bilavasitə təmas xəttində yerləşən hərbi hissələrə dəfələrlə səfər edilmiş, şəxsi heyətlə görüşlər keçirilmişdir. Ezamiyyətlər zamanı təhlükəsizliyin qorunması baxımından təmas xəttindəki post və səngərlərin ümumi vəziyyətinə baxışlar keçirilmiş, şəxsi heyətin döyüş əzminin və mənəvi-psixoloji hazırlığının ümumi səviyyəsi öyrənilmiş, keçirilmiş görüşlər zamanı müxtəlif problemlər müzakirə olunmuş, onların aradan qaldırılması üçün təkliflər verilmiş, problemlərin bir qismi isə elə yerindəcə həll edilmişdir.

***- Silahlı Qüvvələrin üzərində vətəndaş nəzarəti hansı formada həyata keçirilir?***

- Müdafiə Nazirliyi respublikamızın digər mərkəzi icra hakimiyyəti orqanları kimi üzərinə qoyulmuş vəzifə və tapşırıqların icrasına görə məsuliyyət daşıyır. Şübhəsiz ki, məsuliyyət olan yerdə də hesabatlılıq mövcuddur. Müdafiə Nazirliyi ölkənin digər rəsmi qurumları ilə əməkdaşlığa önəm verdiyi kimi, həm də qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etməyin marağındadır və bir çox QHT-lərlə hazırda əməkdaşlıq edir. Belə təşkilatlara vaxtaşırı hərbi hissələrdə əsgərlərin həyat şəraiti, mənəvi-psixoloji ab-hava ilə tanış olmaq imkanları yaradılmışdır. Qoşunlar müntəzəm olaraq beynəlxalq müşahidəçilər tərəfindən yoxlanılır, ictimaiyyət və KİV nümayəndələri tez-tez hərbi hissələrdə olur, qoşunların və hərbçilərin məişət və həyat-fəaliyyətləri ilə tanış olurlar. Bundan başqa, rəhbərliyin qərarı ilə Müdafiə Nazirliyində vaxtaşırı KİV nümayəndələri ilə görüşlər keçirilir. Onu da demək yerinə düşər ki, bu istiqamətdə yeniliklər həyata keçiriləcəkdir.

***- Müdafiə Nazirliyinin təhqiqat orqanlarının fəaliyyət göstərməsindən artıq bir neçə il keçib. Cinayətlərin azalmasında, hərbi hüquq sisteminin təkmilləşməsində təhqiqat orqanlarının rolunu necə qiymətləndirərdiniz?***

- Əminliklə demək olar ki, Müdafiə Nazirliyi sistemində təhqiqat orqanlarının yaradılması tamamilə düzgün bir addım olmuşdur. Bu orqanların yaradılmasının zəruriliyi artıq bu gün göz qabağındadır. Statistik göstəricilərə görə, Silahlı Qüvvələrdə cinayətkarlığın ümumi səviyyəsi azalmaqdadır. Bir çox amillər cinayətlərin sayının azaldılmasına öz təsirini göstərməkdədir. Ordumuzun maddi-texniki təminatının gücləndirilməsi, hərbi qulluqçuların sosial vəziyyətinin yüksələn xətt üzrə yaxşılaşdırılması, komandir və rəislərin ardıcıl olaraq həyata keçirdikləri maarifləndirmə fəaliyyəti, cinayət və hadisələrin qarşısının alınması üçün görülən profilaktik tədbirlər, şəxsi heyətin qanunlara hörmət ruhunda tərbiyə olunması, cəzanın qaçılmazlığı prinsipinin dönmədən tətbiqi, hərbi qulluqçuların hüquq mədəniyyətinin artması və digər amillər cinayətkarlığın səviyyəsinin azalmasına xidmət edir. Bütün bu işlərin vəhdətdə həyata keçirilməsi və onların təhqiqat orqanlarının fəaliyyətində böyük rol oynaması danılmazdır.

Təhqiqat orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində də işlər görülür. Misal üçün deyə bilərəm ki, cari ilin mayında Müdafiə nazirinin müvafiq qərarı ilə təhqiqat orqanlarının fəaliyyətini və xidməti araşdırmaların aparılması qaydasını tənzimləyən yeni qərar qəbul edilmişdir. Bu qərar araşdırmaların hansı qaydada aparılmasını müəyyən edir, bu sahədə təhqiqat orqanlarının və hərbi hissələrin qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

***- Hərbi intizamın yüksək səviyyədə saxlanılması üçün hərbi qulluqçuların intizam həbsi təsirli intizam tənbehi vasitələrindən biri hesab oluna bilər. Bu barədə nə deyə bilərsiniz?***

- Məlum olduğu kimi, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu vardır. Bu Qanunda göstərilən həbs yerləri sırasında hauptvaxtlar da öz yerini tutur. Yuxarıda qeyd etdiyim kimi, hərbi nizamnamələrin yeni layihələrinin hazırlanması işində Müdafiə Nazirliyinin Hüquq İdarəsi yaxından iştirak edir. O cümlədən, İntizam Nizamnaməsinin yeni layihəsi üzərində işlər başa çatmaq üzrədir. Həmin layihədə intizam həbsinə dair müddəalar nəzərdə tutulmuş, onların effektiv icrası üçün müvafiq mexanizmlər işlənib hazırlanmışdır.

İntizam həbsinin konkret intizam xətalarına görə tətbiq edilməsi mexanizminin mövcudluğu birinci növbədə komandir və rəislərin səlahiyyət həddini aşmamaları üçün zəruridir. Elə bu səbəbdən bütün komandir və rəislərin intizam səlahiyyətlərinin dairəsi dəqiq təyin edilmiş, yol verilmiş hüquqpozmalara görə məsuliyyətin qaçılmazlığı təsbit edilmişdir.

***- Məsuliyyəti dərk etmək üçün bu və bu kimi tədbirlər yaxşı vasitələrdir.***

- Komandirlər yanlız özlərinə görə məsuliyyət daşımırlar. Onlar həmçinin tabelikləində olanların hərəkətlərinə (hərəkətsizliyinə) görə cavabdehdirlər. Çünki rəhbərin qanuni gücü ona tabe olanları idarə etməyə və öz mövqeyi dairəsində fəaliyyət göstərməyə imkan verir. Səlahiyyət qanunla verilir və tənzimlənir. Rütbələrindən asılı olmayaraq bütün rəhbərlər tapşırığı yerinə yetirmək üçün öz səlahiyyətlərini göstərməkdə məsuldurlar. Hərbi qulluqçular tapşırığı yerinə yetirmək üçün səlahiyyətləndirilməlidir. Lakin bu o demək deyil ki, qanundankənar metodlara əl atılsın. Onlar sülh və müharibə dövründə tabelikdəki şəxslərin təlim-tərbiyəsinə, hərbi intizam və mənəvi vəziyyətinə, sıra hazırlığı və zahiri görkəminin səliqəsinə, silahlardan, döyüş texnikası və digər texnikadan, ləvazimatdan, geyimdən düzgün istifadə olunmasına və onların saz saxlanılmasına, döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə cavabdehdirlər.

***- Hərbçilərin hüquqlarının pozulmasına gətirib çıxaran faktorlar əsasən nədən qaynaqlanır?***

- Bu, özünü əsasən hərbi qulluqçular arasında baş verən qeyri-nizami münasibətlərdə göstərməkdədir. Bu da bildiyimiz kimi, son nəticədə hərbi intizamın pozulmasına və orduda cinayət və hadisələrin baş verməsinə gətirib çıxarır. Bəzi özbaşınalıq faktları da məlumdur ki, bu da birincilərə nisbətdə çox da geniş yayılmamışdır.

***- Yəqin ki, Silahlı Qüvvələrdə insan hüquqlarının qorunması özünəxas yanaşma tələb edir.***

- Məlum olduğu kimi, dövlət başçısının 28 dekabr 2006-cı il tarixli qərarına əsasən, Azərbaycan Respublikasında insan hüquqlarının qorunması üçün Milli Plan təsdiq edilmişdir. Bildiyimiz kimi, ordu dövlət qurumudur və orada hərbi forma geyinmiş "mülkilərin" hüquqi problemlərinin həlli xüsusi yanaşma tələb edir. Buna görə də öz hüquqlarını yaxşı bilən və bunu başqalarına da öyrədən mütəxəssislərin hazırlanması lazımdır. Bu, fikrimizcə "insan hüququ üzrə təlimatçı"ların yetişdirilməsi ilə baş tuta bilər. Müdafiə Nazirliyi artıq Ədliyyə və Təhsil Nazirliklərinə bu yönümlü mütəxəssislərin hazırlanmasında kömək göstərilməsi ilə bağlı müraciət etmişdir.

***- Bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edir və işlərinizdə uğurlar arzulayırıq.***

- Mən də sizə öz növbəmdə təşəkkür edirəm. Hüquq İdarəsinin fəaliyyətini işıqlandırmağınız, ümumiyyətlə, Müdafiə Nazirliyinin nailiyyətlərini təbliğ etməyiniz, önəm kəsb edir. İstərdik ki, rəhbərliyə bu işdə hər kəs dayaq olsun və əlindən gələni əsirgəməsin.

**Polkovnik-leytenant**
**Zakir HÜSEYNOV,**
**“Hərbi bilik”**

# Xəbərlər:

## hadisələr, faktlar

### ATƏT PA-nın Bakı bəyannaməsi qəbul olundu



ATƏT Parlament Assambleyasının Bakıda keçirilən 23-cü yay sessiyasının Bakı bəyannaməsi qəbul edilib.

Trend-in məlumatına görə, bəyannamədə qeyd olunur ki, ATƏT regionunda uzanmış münaqişələrin həlli istiqamətində tədbirlərin görülməsi və bu münaqişələrin həllində irəliləyişin sülh yolu ilə və danışıqlar vasitəsilə, o cümlədən BMT Nizamnaməsinə, Helsinki Yekin Aktına və beynəlxalq hüquqa uyğun şəkildə əldə olunması ATƏT-in əsas vəzifələrindən biridir.

Bəyannamədə həmçinin ATƏT-ə üzv dövlətlərin sərhədlərinin pozulmamasının və Helsinki Yekun Aktında əksini tapan ərazi bütövlüyü prinsiplərinə əməl edilməsinin vacibliyi vurğulanır.

Bəyannamədə həmçinin terrorizm və radikalizmlə mübarizənin vacibliyi qeyd olunmaqla, terrorçuların silahlı münaqişə zonalarından daimi yaşadıqları ölkələrə qayıtması nəticəsində terrorizm və radikalizm təhlükələrinin artmasından narahatlıq ifadə olunur və ATƏT-ə üzv ölkələr bu təhlükələrin qarşısının alınmasında təşkilatın rolunun artırılması üçün əlavə tədbirlər görmək imkanlarını nəzərdən keçirməyə çağırılır.

### Krımda Azərbaycan döyüşçülərinin nəşləri aşkar edilmişdir



Krımda arxeoloji ekspedisiya zamanı İkinci Dünya müharibəsi dövrünün Azərbaycan döyüşçülərinin nəşləri aşkar edilmişdir. Krımın Azərbaycan icmasının rəhbəri Rəhim Hümbətov demişdir: "Kerç yaxınlığında arxeoloji ekspedisiya zamanı bir qrup tədqiqatçı İkinci Dünya müharibəsi dövründə həlak olmuş əsgərlərin məzarlarını aşkar etmişlər. Onların arasında azərbaycanlılar da vardır. Məsələn, Süleymanov Əliağa Ramazan oğlu 1924-cü ildə Xızı rayonunda, ehtimal ki, Giləzi kəndində anadan olmuşdur".

Əsgərin nəşi bu ilin mayında "Acımuşqay-2014" adlı ekspedisiya çərçivəsində axtarış tədbirləri zamanı aşkar edilmişdir. Onun nəşi fərdi tanıma nişanına və "Döyüş xidmətlərinə görə" 604333 nömrəli medalına əsasən eyniləşdirilmişdir.

Daha bir azərbaycanlı döyüşçünün - Miriyev Xudam Alışerunoviçin (ola bilsin ki, Miriyev Xudat Alışirin oğlu) nəşi aşkar edilmişdir. O, 1924-cü ildə Astraxanbazar (indiki Cəlilabad) rayonunun Mikayıllı kəndində anadan olmuşdur.

Rəhim Hümbətov sonda demişdir: "Əgər həlak olmuş döyüşçülərin yaxınları tapılsa və onlar bu döyüşçülərin nəşlərinin Azərbaycanda yenidən dəfn edilməsini istəsələr, biz bu məsələdə onlara hərtərəfli kömək göstərərik".

### İranın nüvə proqramına dair yekun saziş üzərində iş başlamışdır



İyulun 2-də Vyanada İranla "Altılıq" ölkələri (BMT Təhlükəsizlik Şurasının beş daimi üzvü və Almaniya) arasında bu ölkənin mübahisəli nüvə proqramı ilə bağlı danışıqların sayca altıncı və həlledici raundu işə başlamışdır.

Danışıqlarda Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Ketrin Eştonun və İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin iştirak etmələri nəzərdə tutulur.

Tərəflər keçən ilin noyabrında start verilən bu danışıqlarla İranın mübahisəli nüvə proqramının dinc məqsədlər üçün istifadəsinə dair yekun razılaşma əldə etmək və on ildən artıq davam edən gərginliyə son qoymaq niyyətindədirlər.

Sonuncu və həlledici raundun kifayət qədər gərgin keçəcəyi və bir neçə həftə davam edəcəyi gözlənilir. Tərəflər qarşıya iyulun 20-dək İranın nüvə proqramının dinc məqsədlər üçün istifadəsini əks etdirən yekun razılaşma sazişinin imzalanacağına dair nikbin məqsəd qoymuşlar.

### Avropa kosmosa nəhəng rentgen teleskopu göndərəcəkdir



Avropa bəşəriyyət tarixində nəhəng rentgen teleskopunun yaradılmasına yönələn layihəyə başlamışdır. Uzunluğu 12 metr, çəkisi 5 ton təşkil edən "Athena" kosmik aparatının 2028-ci ildə orbitə buraxılması planlaşdırılır.

AzərTAc xarici saytlara istinadla xəbər verir ki, bir milyard dollar dəyərinə malik layihə Avropa Kosmik Agentliyinin (ESA) Elmi Proqramlar Komitəsi tərəfindən keçirilən görüşündə təsdiq olunmuşdur. Bununla bağlı son qərarın komitənin 2019-cu ildə keçiriləcək iclasında veriləcəyi gözlənilir.

Yeni aparat kosmosun dərinliklərini müşahidə etməyə imkan verəcək qabaqcıl optika və detektorlarla təchiz ediləcəkdir. "Athena" qalaktikaların yaranma prosesini, eləcə də onların mərkəzində yerləşən "qara dəliklər"in mənşəyini və inkişafını tədqiq edəcəkdir.

### Ukrayna Prezidenti Müdafiə nazirini və Baş Qərargah rəisini dəyişdirib



Ukrayna Prezidenti Petro Poroşenko Müdafiə Nazirliyinin rəhbərliyində kadr dəyişikliklərini həyata keçirib. APA-nın Ukrayna saytlarına istinadən yaydığı xəbərə görə, P.Poroşenko Müdafiə naziri Mixail Kovalın vəzifəsindən azad olunması barədə Ali Radaya təqdimat verib. Parlament bu təqdimatı qəbul edib. Prezidentin təqdimatı ilə Dövlət Mühafizə İdarəsinin rəisi general-polkovnik Valeri Qeletey Müdafiə naziri vəzifəsinə təsdiqlənib. P.Poroşenko Müdafiə naziri vəzifəsindən çıxardığı M.Kovalı Milli Təhlükəsizlik və Müdafiə Şurası katibinin müavini təyin edib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargah rəisi də dəyişib. P.Poroşenko Silahlı Qüvvələrin Baş Qərargah rəisi vəzifəsinə general-leytenant Nikolay Mujenkonu təyin edib. N.Mujenko Baş Qərargah rəisinin müavini vəzifəsini tuturdu. O, şərqdəki hərbi əməliyyatlarda əsgərlərlə birlikdə bilavasitə iştirak edərək məşhurlaşıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Hərbi vətənpərvərlik mövzusunda silsilə tədbirlərə start verilib







***Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2014-cü il tarixli sərəncamının icrasına başlanıb.***

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, hərbi vətənpərvərlik mövzusunda silsilə tədbirlərə start verilib. Bu məqsədlə Gəncə Qarnizonunda xidmətini başa vuran əsgərlərin yola salınması və gənc əsgərlərin hərbi xidmətə qəbuluna həsr olunmuş təntənəli mərasim keçirilib.

Əvvəlcə hərbi orkestrin müşayiəti ilə hərbi hissənin Döyüş Bayrağı meydana gətirilib. Hərbi hissə komandiri şəxsi heyətin hazır olması barədə məruzə edib. Azərbaycan Respublikasının Dövlət himni ifa edildikdən sonra, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik-müraciətini şəxsi heyətə çatdırıb.

Sonra Böyük Vətən müharibəsinin veteranı İsmayıl Məmmədov, Əfqanıstan müharibəsinin veteranı İbrahim Hacıyev, Qarabağ müharibəsinin veteranı Tahir Dərziyev və Azərbaycan Yazıçılar Birliyi Gəncəbasar bölməsinin üzvü, şairə Samirə Səma çıxış edərək hərbi xidməti uğurla başa vurmuş gənclərə səmimi arzularını bildiriblər.

Qazax rayon İcra Hakimiyyəti başçısının birinci müavini Fərman Nağdəliyev Vətənin etibarlı müdafiəsində fəal iştirak etmiş döyüşçülərə rayon rəhbərliyi və ictimaiyyət adından minnətdarlığını bildirib, hərbi xidmətini başa vurmuş bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edib.

Ehtiyata buraxılan əsgər Hakim Əhmədov rəmzi olaraq silahını, dəmir əsgər dəbilqəsini və döyüş növbəsini gənc əsgər İlahi Tağıyevə təhvil verib.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Müdafiə nazirinin və hərbi hissə komandirinin adından hədiyyələr təqdim edilib, Döyüş Bayrağı qarşısında kollektiv şəkillər çəkdirilib.

Rəsmi hissədən sonra Gəncə Zabitlər Evi birləşmiş bədii kollektivlərinin iştirakı ilə böyük konsert proqramı təşkil olunub.

Bu tədbirlər Əlahiddə Ümumqoşun Ordusu, birlik, birləşmə və hərbi hissələrdə də davam edir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycanın Milli Qəhrəmanı Anatoli Davidoviçin xatirəsi ehtiramla yad edilmişdir

***Gəncə Qarnizonunda əslən Belarusdan olan Azərbaycan Respublikasının Milli Qəhrəmanı Anatoli Davidoviçin xatirə günü keçirilmişdir.***

Bölgənin Böyük Vətən və Qarabağ müharibəsi iştirakçılarının, eləcə də Əfqanıstan müharibəsi veteranlarının iştirak etdikləri xatirə gününü Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani açaraq ötən əsrin 80-ci illərinin axırlarında sovet ordusunun Azərbaycandakı hərbi hissəsində qulluq edərkən erməni işğalçılarının apardıqları ədalətsiz müharibəyə etiraz əlaməti olaraq azərbaycanlılarla birlikdə döyüşməyi qərara alan belaruslu hərbçinin keçdiyi şanlı döyüş yolundan danışmışdır. Onun 1992-ci ilin iyulunda Ağdam uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olaraq Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldüyü diqqətə çatdırılmışdır.

Anma mərasimində Belarusun və Azərbaycanın dövlət himnləri səsləndirilmişdir.

Müdafiə Nazirliyinin xətti ilə Anatoli Davidoviçin dəfn olunduğu vətəni, Belarusun Slutsk şəhərinə ezam olunmuş bir qrup Azərbaycan hərbçisinin orada keçirdiyi görüşlərdən bəhs edən sənədli filmin nümayişindən sonra Gəncə Qarnizonunun rəisi, Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov, Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Nazim Veysov,



İkinci Dünya müharibəsində Belarusun azad olunmasında şücaət göstərmiş 92 yaşlı Tofiq Hüseynov, Belarus-Azərbaycan Dostluq Cəmiyyətinin sədri, Əfqanıstan Müharibəsi Veteranları Şurası idarə heyətinin üzvü Məhəmməd Vəliyev və vaxtilə Milli Qəhrəmanın xidmət etdiyi hərbi hissənin komandiri Vüqar Məmmədov çıxış edərək torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə əsl igidlik göstərən Anatoli Davidoviçin xatirəsinin hər bir azərbaycanlının qəlbində daim yaşayacağını vurğulamışlar.

Xatirə günündə Belarusun Azərbaycandakı konsulu Oleq Qoroxovik çıxış edərək xalqlarımızın dostluğunun tarixi köklərindən danışmışdır. Bildirilmişdir ki, bu dostluq hələ İkinci Dünya müharibəsində özünü göstərmişdir. Mayor Anatoli Davidoviç öz qəhrəmanlığı ilə sübut etmişdir ki, milliyyətindən asılı olmayaraq, hər kəs öz vətəndaşlıq borcunu dərk etməlidir.

Tədbir Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının çıxışları ilə davam etdirilmişdir. Proqramda sözləri Abdulla Qurbaniyə, musiqisi isə Azad Zahidə məxsus olan klip nümayiş etdirilmişdir.

**AzərTAc**



# "Səni tərənnüm edirəm, Azərbaycan əsgəri!"

***Azərbaycanın Mudafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, müddətli həqiqi hərbi xidmətini başa vurmuş hərbi qulluqçuların ehtiyata buraxılması və çağırış yaşına çatmış vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması ilə bağlı keçirilən hərbi vətənpərvərlik həftəsi davam edir. Tovuz, Ağstafa, Daşkəsən və Şəmkir bölgələrinin hərbi hissələrində təşkil olunan mərasimlər ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin, ordu ilə xalqın monolit birliyinin və Vətən əsgərinin Azərbaycan naminə Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduğunun təntənəsinə çevrilmişdir.***

"Səni tərənnüm edirəm, Azərbaycan əsgəri!" devizi altında təşkil olunan təntənəli mərasim iştirakçıları əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin qərargah qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərə hörmət və ehtiramlarını bildirdilər. Sonra Heydər Əliyev Mərkəzinin ekspozisiyası haqqında qonaqlara ətraflı məlumat verildi.

Əsgər klubunda keçirilən tədbiri Mudafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani açaraq bildirdi ki, Azərbaycan Ordusu bu gün ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Dahi öndərimizin ordu quruculuğu siyasətini uğurla davam etdirən möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin daha da möhkəmlənməsi, qüdrətlənməsi üçün səylərini əsirgəmir. Cənab Prezidentin bu günlərdə Strasburqda Avropa Şurası Parlament Assambleyasında çıxışı, xalqımıza, dövlətimizə qarşı qərəzli və məkrli çıxışlara qətiyyətli cavabları Azərbaycan əsgərinin döyüş ruhunu, qələbə əzmini daha da artırmışdır. Azərbaycan əsgəri fəxr edir ki, digər ölkələrin ordularının qibtə edəcəyi rəhbərimiz, Ali Baş Komandanımız vardır. Ulu öndər Heydər Əliyev arzu edərdi ki, ordu mövzusu, ordunun yaranması, formalaşması həyatımızın əsas mövzusu olsun. Həqiqətən, bu gün ordu mövzusu həyatımızın əsas mövzusudur.

Yaradıcılıq təşkilatlarının nümayəndələri, veteranlar, ziyalılar öz çıxışlarında fəxrlə qeyd etdilər ki, bu gün, doğrudan da, Azərbaycanın ərazi bütövlüyünü, təhlükəsizliyini etibarlı şəkildə təmin edən, düşmən təcavüzlərinin qarşısını qətiyyətlə alan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır və qadir olan Silahlı Qüvvələrimiz vardır.





Azərbaycan Yazıçılar Birliyi Gəncə bölməsinin sədri, Əməkdar İncəsənət xadimi, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, şair Məmməd Alim, yazarlardan Aləmzər Əlizadə, Nadir Ovçu, Ramiz Təmkin Azərbaycan əsgərinə həsr etdikləri yeni şeirlərini oxumuş və şəxsi heyətə xidmətdə uğurlar arzulamışlar.

Gəncə Dövlət Dram Teatrının aktyorları xalq artisti Məmmədəli Balayev, artistlərdən Elşad Əhmədov, Eldəniz Tağıyev, Kəmalə Məmmədova, Sevda Orucova və Sevinc Hüseynova hərbi vətənpərvərlik mövzusunda şeirlərdən ibarət ədəbi-kompozisiya təqdim etdilər.

Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavinləri Fəxrəddin Vəliyev və Sona Əliyeva ordu ilə xalqın birliyindən danışdılar. Cahangir Rüstəmov adına Şəmkir şəhər tam orta məktəbinin müəllimi Şərqiyyə Məmmədova isə gənc rəssamların Vətən müdafiəçilərinə həsr etdiyi rəsm işlərini təqdim etdi. Sonra Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı, Gəncə Zabitlər Evi və folklor kollektivləri ordu mövzusunda ədəbi-musiqili-xoreoqrafik kompozisiya ilə çıxış etdilər.

Məktəbli qızlar Nəzrin Quluzadənin, Xanım Piriyevanın və Bənövşə Kazımovanın "Vətən çağırır bizi" poeziya çələngi də tədbir iştirakçılarının böyük marağına səbəb oldu.

Tədbirin sonunda polkovnik Elşad Əbilov hərbi hissənin komandanlığı və şəxsi heyəti adından Müdafiə Nazirliyinin rəhbərliyinə, mərasimin təşkilatçılarına və qonaqlara minnətdarlığını bildirdi.

**"Azərbaycan Ordusu"**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## İdman

### Dünya çempionatında bütün 1 4 final cütlükləri müəyyənləşib



Braziliyada futbol üzrə dünya çempionatında səkkizdəbir final mərhələsinin matçları başa çatmış, mündialın dörddəbir finalının bütün iştirakçıları məlum olmuşdur.

AzərTAc xəbər verir ki, turnirə ev sahibliyi edən Braziliya komandası Kolumbiya yığması ilə qarşılaşacaq, Avropanın iki qrandı - Fransa və Almaniya öz aralarında oynayacaq, Cənubi Afrika Respublikasında keçirilən ötən dünya çempionatının finalçısı Niderland Kosta-Rika yığması ilə görüşəcək, Argentina komandasını isə iddialı belçikalılar gözləyirlər.

2014-cü il dünya çempionatının 1/ 4oyunlarının qrafiki belədir: Fransa - Almaniya (4 iyul), Braziliya-Kolumbiya (4 iyul), Niderland - Kosta-Rika (5 iyul), Argentina-Belçika (5 iyul).

### Avropa çempionatında tarixi nailiyyət



Fransanın Mant-an-İvelin şəhərində yeniyetmələr və 23 yaşadək kayakçılar və kanoeçilər arasında Avropa çempionatında Azərbaycan milli komandası tarixi nailiyyətə imza atıb.

Azərbaycan Milli Avarçəkmə Federasiyasının mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, ölkəmiz nüfuzlu yarışlarda ilk dəfə kayak növündə medal qazanıb. Çempionatın son günündə Mirnazim Cavadov 1 nəfərlik qayıqla (K-1) 500 metr məsafəyə final yürüşündə finişə 1 dəqiqə 40,812 saniyəyə çataraq, bürünc medala yiyələnib. Danimarkalı Orion Pilo 1 dəqiqə 40,092 saniyə nəticə ilə Avropa çempionu, rumıniyalı Kostantin Mironesku isə 1 dəqiqə 40,220 saniyə göstərici ilə vitse-çempion olub.

### İki qadın güləşçimiz FİLA-nın reytinq siyahısında birinci pillədədir



Beynəlxalq Güləş Federasiyası (FİLA) iyul ayı üçün qadın güləşi üzrə idmançıların reytinq siyahısını açıqlamışdır. AzərTAc xəbər verir ki, qadın güləşçilərin reytinq siyahısına 5 idmançımızın adı daxil edilmişdir.

Siyahıda 48 və 60 kiloqram çəki dərəcələrində güləşçilərimiz Mariya Stadnik və Yuliya Ratkeviç birinci pillədə qərarlaşmışlar.

Digər güləşçilərimiz Patimat Baqomedova 15-ci (53 kq), İrina Netreba 6-cı (58 kq) və Raqnetta Qurbanzadə isə 18-ci (69 kq) yerdədirlər.
"

### "Qəbələ kuboku" uğrunda futbol yarışına yekun vurulmuşdur




Qəbələ Olimpiya İdman Kompleksinin stadionunda kişilər arasında futbol üzrə "Qəbələ kuboku" uğrunda rayon birinciliyinin final oyunu keçirilmişdir.

AzərTAc xəbər verir ki, Olimpiya sistemi üzrə keçirilən çempionatda rayonun şəhər, qəsəbə və kəndlərindən, həmçinin idarə, müəssisə və təşkilatlarından, ümumilikdə, 22 komanda iştirak etmişdir.

Yarışın final mərhələsində rayonun Şamlı kənd inzibati ərazi dairəsinin və Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzinin komandaları qarşılaşmışlar.

Fövqəladə Hallar Nazirliyinin komandası 3:1 hesabı ilə qalib gəlmişdir.

Qalib komandaya kubok, komandanın üzvlərinə isə diplomlar verilmişdir.

### İdmançımız qaydasız döyüş üzrə beynəlxalq turnirin qalibi olmuşdur



Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən qaydasız döyüşün MMA növü üzrə Beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikasından olan idmançı Gündüz Qarayev rinqdə bütün rəqiblərini məğlub edərək turnirin qalibi adını qazanmışdır.

AzərTAc xəbər verir ki, final qarşılaşmasında onun rəqibi Ermənistan idmançısı olmuşdur. Lakin rinqə çıxan Gündüz Qarayev rəqibini gözləsə də, erməni idmançı naxçıvanlı idmançı ilə döyüşməkdən imtina etmiş və rinqə çıxmamışdır. Nəticədə idmançımız texniki qələbə qazanmış və turnirin baş mükafatına layiq görülmüşdür.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 234
Nüsxə 4570